*UOT 159.9*

***Türkan İlqar qızı Rəhimli***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Xəzər Universiteti*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
https://orcid.org/0009-0008-9663-5874

# BAĞLILIQ PROBLEMİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

***Тюркан Ильгар гызы Рагимли***
*докторант по программе доктора философии*
*Университет Хазар*
*преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# ПРОБЛЕМА ПРИВЯЗАННОСТИ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА НЕЕ

***Turkan Rahimli Ilgar***
*doctorial student in the program of doctor of philosophy,*
*Khazar University*
*lecturer at*
*Azerbaijan State Pedagogical University*

# ATTACHMENT PROBLEM AND FACTORS AFFECTING IT

**Xülasə.** Bağlanma körpə ilə ona baxan şəxs arasında yaranan emosional münasibəti ifadə edir. Məqalədə öz əksini tapan eksperimentlər bağlılıq anlayışının istər körpə, istərsə də valideyn üçün əhəmiyyətini vurğulayır. Bir çox nəzəriyyəçinin fikrincə, körpənin anayla qurduğu münasibət onun gələcəkdə digər şəxslərlə quracağı münasibətlərə təsir edir. Bu baxımdan məqalədə bağlılığa təsir edən müsbət və mənfi faktorlar araşdırılmışdır.
***Açar sözlər:*** *bağlılıq nəzəriyyəsi, Con Bolbi, ana və körpə münasibəti, bağlanma üslublarıı, amillər*

**Резюме.** Привязанность относится к эмоциональным отношениям между ребенком и опекуном. Эксперименты, отраженные в статье, подчеркивают важность концепции привязанности как для малыша, так и для родителя. По мнению многих теоретиков, отношения ребенка с матерью влияют на его отношения с другими людьми в будущем. С этой точки зрения в статье рассмотрены положительные и отрицательные факторы, влияющие на привязанность.
***Ключевые слова:*** *теория привязанности, Джон Боулби, отношения матери и ребенка, паттерны привязанности, факторы*

**Summary.** Attachment refers to the emotional relationship between the baby and the caregiver. Experiments reflected in the article emphasize the importance of the concept of attachment for both the baby and the parent. According to many theorists, the relationship a baby has with its mother affects the relationships it will have with other people in the future. From this point of view, the positive and negative factors influencing the attachment have been examined in the article.
***Key words:*** *attachment theory, John Bowlby, mother-infant relationship, attachment patterns, factors*

0-2 yaş arası uşağın fiziki, zehni və emosional olaraq ən sürətli inkişaf etdiyi dövr hesab edilir. Buna görə də bu dövrdə uşağın yalnız fiziki ehtiyaclarının ödənilməsi kifayət deyildir. Körpənin bacarıqları yetəri qədər inkişaf etmədiyindən, ona baxan şəxsdən asılıdır. Bu asılılıq prosesində körpənin zehni və emosional inkişafı üçün ona baxan şəxslə qurduğu əlaqə çox əhəmiyyətlidir və onlar arasında bağlılığın yaranması qaçılmazdır. Bağlanma termini körpəylə

valideynləri, ya da baxıcıları arasında emosional olaraq müsbət və faydalı münasibətin mövcudluğunu ifadə edir. Bu dövrdə uşağın sosial ehtiyacları ona baxan şəxs tərəfindən ödənilir ki, bu da adətən anadır. İlk illərdə ana ilə yaranan bu bağlılıq uşağın şəxsiyyətinin önəmli bir hissəsini təşkil edir və bu xüsusiyyətlər ömür boyu dəyişməyə qarşı bir müqavimət göstərməkdədir (7, s. 24).

Erkən uşaqlıq illərində uşağa baxan şəxslə onun arasındakı bağlılıq və bunun yetkinlik dövrünə təsirləri haqqında ilk fikirlər 1958-ci ildə C. Bolbi tərəfindən irəli sürülmüşdür. Onun fikrincə, doğuşdan sonrakı 12 ayda körpə ona baxan ana fiquruna yönəlmiş güclü, libidinal bağlılıq inkişaf etdirir. Bağlılıq qurduğu insanla sıx yaxınlıq qurmaq istəyini nümayiş etdirir, bağlılıq qurduğu insandan ayrılıq anında isə kədər və stress əlamətləri ortaya çıxır (4, s. 64). Uşaq psixoanalitiki kimi tanınan Bolbi uşaqlıqda psixopatologiyaya səbəb olan amillərlə maraqlanmışdır. Lakin Bolbi bir terapevtdən çox nəzəriyyəçi kimi qəbul edilir. O, öz nəzəriyyəsində uşağın emosional inkişafına üstünlük verir. Nəzəriyyəsinin əsas nüansı isə ananın körpəsi üçün xarici dünyanı araşdırması və lazım gəldikdə təhlükəsiz bir mühit yaratmasıdır (7, s. 25). Eyni zamanda, ana ilə və ya onun yerinə uşağa baxan şəxslə körpə arasındakı əlaqə özünü güvəndə hiss etməsi, ehtiyaclarının qarşılanması, emosional yaxınlıq gözləntisinin qarşılanması kimi müsbət bir prosesdə irəliləsə, baxıcısıyla qurduğu pozitiv əlaqə nəticəsində özünü sevilməyə və təsdiqlənməyə layiq görərək özünü önəmli hiss edər və qarşısındakıları, dünyanı etibarlı bir yer kimi qavrayar (2, s. 241).

Bolbi bu bağlılığı izah edən 4 komponenti açıqlamışdır:

1. İkinci dərəcəli impuls (*secondary drive*) – ana uşağın fizioloji ehtiyaclarını təmin edir. Ana tərəfindən körpənin qidalanma, təhlükəsizlik, tualet təhsili kimi ən əsas ehtiyacları qarşılanır.

2. İlkin obyektin əmilməsi (*primary object sucking*) – ana südü ilə qidalanan körpə əmmə prosesində ana ilə fiziki bağlılıq qurduğunu hiss edir. Yəni əmmə davranışı fiziki bir bağlılıq hesab edilir. Yeni doğulan körpə ilk fiziki bağlılığını əmmə ilə həyata keçirir.

3. Birincil obyektə yapışma (*primary object clinging*) – uşağın ana ilə fiziki yaxınlıq qurmağa, onu qucaqlamağa ehtiyacı vardır. Başqa sözlə, ana fiquruna yapışan körpə özünü daha güvəndə hiss edir. Qidalanma ilə yanaşı təhlükəsizlik də əsas ehtiyaclardan biridir. Bəhs edilən yapışma davranışı təhlükəsizlik tələbatını ödəmək üçün nəzərdə tutulub. Körpə anasına qucaqlayarkən özünü xarici dünyadakı təhlükələrdən qorunurmuş kimi hiss edir.

4. Ana bətninə qayıdış həvəsi (*Primary Return to Womb Craving*) – ana bətnindən ayrılan körpə xarici dünyayla tanış olduqdan və kəşf etdikdən sonra ora geri qayıtmaq istəyər (4, s. 64).

Bolbinin araşdırmasının mahiyyətini H. Harlovun bağlanma nəzəriyyəsi ilə bağlı gördüyü işlər təşkil edir. O, meymun balalarından istifadə etməklə apardığı tədqiqatlarda mühüm nəticələr əldə edib. Bu tədqiqatda əsas nüans ananın məhrumiyyətidir. Harlov meymun balalarının bir qismini 3, bir qismini 9 və digər qismini isə 12 ay olmaqla doğuşdan sonra analarından ayıraraq təcrid olunmuş mühitdə saxlamış və sonra başqa meymunların arasına yerləşdirmişdir. İzolyasiya edilmiş meymunların digər balalara nisbətən daha qəzəbli və narahat davrandıqları, aqressiv davranışları daha çox göstərdikləri müşahidə edilmişdir. Eyni zamanda, bu mənfi emosiya və davranışlar təcrid müddəti ilə birbaşa mütənasib olaraq dəyişir. Alınan nəticələr anay ilə qurulan bağlılığın gələcəkdə sosial davranışlara müsbət mənada təsir etdiyini göstərir (4, s. 65; 7, s. 25).

Harlovun digər araşdırması ana ilə qurulan bağlılığın səbəbləri ilə əlaqəlidir. O, bu araşdırmasında bir qrup meymun balasını analarından ayıraraq bir otağa qoymuşdur. Həmin otaqda 2 ədəd süni ana vardır. Onlardan biri məftillərlə örtülü skelet şəklindədir və sinə hissəsində süd dolu butulka yerləşdirilib, digərində isə qida maddəsi yoxdur, lakin yumşaq parçalarla örtülmüş iki ədəd metal maketdir. Tədqiqat zamanı balaların çox vaxt yumşaq maketlə zaman keçirdikləri, yalnız ac olduqda yemək məqsədilə digərinə doğru getdikləri müşahidə edilmişdir. Hətta onlara qorxulu cisim göstərildikdə yumşaq maketi qucaqladıqları görülmüşdür. Bu araşdırma ilə təhlükə zamanı rahat və yumşaq bir qucaqlama ehtiyacının qidalanma ehtiyacından daha vacib olduğu nümayiş etdirilmişdir. Bolbi aparılan tədqiqatlardan belə bir nəticəyə gəlmişdir ki, yanlış formalaşmış və ya vaxtaşırı

kəsilən bağlılıq şəxsiyyət problemlərinə və psixi xəstəliyə səbəb ola bilər. Məsələn, onun fikrincə, güvənsiz bağlanma üslubları nevrotik şəxsiyyətin inkişafı üçün əsasdır (7, s. 25).

Kanadalı psixoloq Meri Ensvord Bolbi ilə birlikdə bağlanma nəzəriyyəsi ilə əlaqəli çox işlər görmüş və fikir mübadiləsində olmuşdur. Bir müddət sonra Con Hopkins Universitetində körpələr üzərində apardığı araşdırmalarda Bolbinin iddia etdiyindən daha çox nəticələr əldə etdi. O, körpə ilə ananı laboratoriya şəraitində müşahidə etmiş və "qəribə situasiya" olaraq adlandırdığı təcrübəni həyata keçirmişdir. Bu eksperimentdə, körpə 8 dəqiqə anasından uzaq yad bir adamla qalır. Burada iki nüans çox önəmlidir: anadan ayrılıq və ana ilə qovuşma vaxtı. Bu iki andakı cavabdan asılı olaraq, körpə iki əsas bağlanma üslubundan birinə daxil edilir: təhlükəsiz və ya təhlükəli. Təhlükəli bağlanma da qərarsız və qaçınan olmaqla 2 yerə ayrılır. Təhlükəsiz bağlanmış uşaq anası otaqdan çıxdıqda normal gərginlik yaşayırlar, geri qayıtdıqda isə şən bir halda qarşılayırlar. Qərarsız bağlanma tərzinə malik uşaq anası getdikdə həddindən artıq üzüntü hissi keçirir və ayrılmaq istəmədiyini davranışlarında göstərir, lakin anası qayıtdıqda hirslənir və onu qəbul etmir, ayrılıq vaxtı demək olar ki, reaksiya vermir, sakit qalır, ana geri döndükdə isə ondan imtina edir və uzaqlaşdırır.

Eksperimental nəticələr əsasında yaradılmış qruplaşmanı yalnız uşağın emosional vəziyyəti ilə əlaqələndirmək yanlış dəyərləndirmə olardı. Təhlükəsiz və ya güvənli bağlanmanın ana həssaslığı ilə əhəmiyyətli dərəcədə əlaqəli olduğu ortaya çıxdı. Daha az həssas anaların körpələrin güvənsiz olaraq təsnif edilmə ehtimalı yüksək olduğu halda, həssas anaların uşaqları güvənli bağlanma meyli göstərdilər (3, s. 11-12). Lakin bu münasibətlərin əlaqəli olması onlar arasında səbəb-nəticə əlaqələrinin mövcudluğuna zəmanət vermir. Uşağın xasiyyəti də üçüncü dəyişən kimi bağlanma tərzinə təsir edə bilər (7, s. 27).

Bağlanma problemi ilə ingilis psixoanalitik Donald Vinnikot da maraqlanırdı. Onun fikirləri müəyyən qədər Bolbi ilə oxşarlıq təşkil edirdi. Vinnikota görə, ətraf mühitlə əlaqə ana tərəfindən təmin edilir. Ana böyüyən uşağın istəklərinə və ehtiyaclarına empatiya göstərə bilər. Onun ən önəmli anlayışı "kifayət qədər yaxşı ana" olmuşdur. Vinnikot "kifayət qədər yaxşı ana" dedikdə uşağın bütün istəklərini qarşılayan yox, onun ehtiyaclarını ödəyən ananı nəzərdə tutur. Uşağın yetkinləşməsi üçün onun hər istəyinin qarşılanmaması və məhrumiyyətlərə məruz qalması lazım olduğunu ifadə edir. Uşaq müəyyən məhrumiyyətlər yaşadıqca daha yaradıcı olacaq, şəxsiyyətini və zəkasını inkişaf etdirəcək, gözləməyi, təxirə salmağı öyrənəcək və həyatda qarşılaşa biləcəyi müxtəlif problemlərlə mübarizə strategiyalarını kəşf edəcək. Əlavə olaraq, uşağın məqbul sayılacaq səviyyədə yalnız qalması da "tək qala bilmə qabiliyyətinin" inkişafına səbəb olacaqdır. O, özünü emosional cəhətdən təmin etməyi öyrənmiş olacaq. Tək qala bilmə bacarığı inkişaf etdikcə fərdiləşmə prosesi daha sağlam şəkildə tamamlanacaqdır. Başqaları ilə asılı münasibət qurmaq əvəzinə, daha düzgün münasibətlərə addım atacaqlar (1, s. 51-52).

Bundan əlavə, Bolbi və Vinnikot uşaqlıq dövrü psixopatologiyalarından biri olan oğurluq davranışını oxşar şəkildə açıqlasalar da, bəzi nüanslarda fərqliliklər də var. Bolbi üçün oğurluq davranışı sosioloji bir hadisədir, erkən uşaqlıq dövründəki ana ilə ayrılmaya qarşı olan bir reaksiya kimi izah olunur. Vinnikot isə oğurlamaq aktını simvolik ifadə üsulu kimi görür. Oğurlanmış əşya uşaqdan ayrılmış ananın obrazını əvəz edir və ananın yoxluğu ilə yaranan emosional çatışmazlıq arasında körpü rolunu oynayır.

Bağlanma prosesi ilə əlaqədar işlər görmüş bir çox nəzəriyyəçinin fikrincə, insanın yetkin dönəmində ətrafındakılarla qurduğu münasibətin keyfiyyətinə həyatın ilkin mərhələlərində anası ilə qurduğu bağlılığın olduqca təsiri vardır. Çətin və stresli situasiyalarda ana və uşağın bir-birinə verdiyi dəstək bağlılığı gücləndirir. Bağlanma hər iki tərəfin bir-birinin ehtiyacını ödəməsindən asılı olaraq inkişaf edən bir proses olduğundan ikitərəfli münasibətdir (6, s. 91). Dünyaya təzə göz açmış körpənin yemək, isinmək, qorunmaq və s. kimi ehtiyacları vardır və bunların ödənməsi üçün baxıcıya möhtacdır. Uşağa baxan şəxs – ana, ata və ya baxıcı isə bunu sadəcə bir vəzifə olaraq dəyərləndirməz, eyni zamanda, bu fəaliyyətdən məmnun olar. Bu

qarşılıqlı əlaqə də onlar arasındakı bağı gücləndirir.

Uğurlu bağlanmağa kömək edən amillərə nəzər saldıqda Fennel və yoldaşlarının keçirdiyi eksperiment nəzərə çarpır. Fennel və yoldaşları keçirdikləri eksperimentdə iki ana qrupundakı ana davranışlarını araşdırmış və aşağıdakı nəticələrə gəlmişlər: Birinci qrupdakı analar doğuşdan sonrakı ilk 3 gün uşaqları ilə sıx əlaqə saxlamağa icazə verilən analar idi. Digər qrupdakı analar uşaqlarının doğuşundan sonra çox qısa müddət onları görmüş və sonra hər 4 saatdan bir iyirmi dəqiqəlik əmizdirmə zamanı onlarla əlaqə quranlar idi. Bir ay və bir il sonra körpələri ilə erkən təmasda olan analar onlara daha bağlı görünürdülər, övladlarından ayrı olanda daha çox darıxdıqlarını və onlar haqqında danışmağa ehtiyac duyduqlarını daha çox bildiriblər. Eyni analar körpələri müayinə edilərkən, ağlayanda onları sakitləşdirmək və onlarla söhbət etmək üçün həkimlərə qoşulmağa meyl edirdilər.

Bağlanma prosesinə mənfi təsir edən amillərdən biri isə həddindən artıq ağlamaqdır. Robinson və Moss (1970) uşağının doğumunu səbirsizliklə gözləyən ananı təsvir edir. Lakin bu körpə ilk ayında olduqca çox ağlamış, qucağa alınmağa reaksiya verməmişdir, daha sonra isə göz təması qurmaqda və gülümsəməkdə gecikmiş, ümumiyyətlə inkişafında da geri qalma müşahidə edilmişdir. Eyni zamanda, körpənin baxımında istəkləri çox olmuşdur. Üç ayın sonunda ana öz körpəsindən uzaqlaşmış, sevilmədiyini, yararsız olduğunu hiss etmiş və nəticədə körpəsini rədd etdiyi nəzərə çarpmışdır. Bununla yanaşı, Bell və Ensvord araşdırmalarında ana körpəsi ağladıqda nə qədər diqqət etməzsə, onun daha çox ağladığını bildirir. Körpələri həddindən artıq ağlayanda analar onları tərk etməyi üstün tutur. Beləliklə, çox ağlamaq ananın geri çəkilməsinə, öz qayğısını göstərməməsinə səbəb olmuşdur. Valideyn-uşaq münasibətinə mənfi təsir edən digər amil isə uşağın xarici görünüşündə müəyyən qüsurların olmasıdır. Belə hallarda əksərən valideynlər övladlarını tərk etməkdən tutmuş, çox az qayğı göstərməyə qədər müxtəlif yollarla imtina edə bilirlər.

İnsan cəmiyyətdə yaşayan və başqa insanlarla qarşılıqlı əlaqədə olmaq istəyən bir canlıdır. Digər canlılarla müqayisədə insan sağ qalmaq üçün daha uzun müddət valideynlərinin köməyinə möhtacdır. Bu qaçılmaz vəziyyət insan növünün birlikdə yaşama meylini, xüsusən də bağlanma ehtiyacını açıqlayır.

Valideyn-körpə bağlılığında yaranan problemlər və nəticədə valideynin öz övladını uzaqlaşdırması bir çox mənfi nəticələrə səbəb ola bilir. Rədd edilmə hər bir uşağa təsir edər, lakin bunun dərəcəsi uşağın yaranmış vəziyyətə olan reaskiyasından asılıdır. Bu hal bir uşaqda davranış problemləri və əsəbilik yarada bilər, digəri isə öz valideyni ilə daha güclü münasibətə meyl edərək vəziyyəti tarazlaşdırmağa çalışar. Amma səbəb hər nə olursa olsun, ana-körpə arasındakı əlaqədə olan pozulmalar körpənin həm həmin dövründə, həm də həyatının sonrakı dövrlərində psixoloji çətinliklər yaşamasına səbəb ola bilər.

**Problemin aktuallığı.** İnsanın körpəlik dövründə ona baxan şəxslə arasındakı münasibətdə olan problemlər onun psixoloji vəziyyətinə təsir edir.

**Problemin elmi yeniliyi.** Məqalədə bağlılıq probleminə təsir edən müsbət və mənfi faktorlar araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə yeni valideyn olmuş şəxslərə övladlarına yanaşma tərzi baxımından faydalı ola bilər. Eyni zamanda bu sahədə tədqiqat keçirmək istəyənlər faydalana bilər.

**Ədəbiyyat:**

1. Baloğlu D., Dan P., Dikicibaşı B., Demir G., & Akgün E. 2021. Yeterince İyi Ebeveyn Olmak: Toplumsal ve Kuramsal Olarak. Kongre programı, 50.
2. Çalışır, M. (2009). Yetişkin bağlanma kuramı ve duygulanım düzenleme stratejilerinin depresyonla ilişkisi. *Psikiyatride güncel yaklaşımlar, 1*(3), 240-255.
3. Demirdağ, M. F. (2017). Bağlanma Teorisi'nin Kökenleri: John Bowlby ve Mary Ainsworth. *Düzce Üniversitesi İlahiyat Fakültesi Dergisi, 1*(2), 76-90.
4. Öztürk, E., Türel, F. İ., & Oğur, E. (2020). Psikotarih ve bağlanma kuramı. *Öztürk E, editör. Psikotarih, 1,* 63-71.
6. Robson, K. S., & Moss, H. A. (1970). Patterns and determinants of maternal attachment. *The Journal of Pediatrics, 77*(6), 976-985.

7. Soysal, A. Ş., Bodur, Ş., İşeri, E., & Şenol, S. (2005). Bebeklik dönemindeki bağlanma sürecine genel bir bakış. Klinik Psikiyatri, 8(2), 88-99.
8. Tüzün, O., & Sayar, K. (2006). Bağlanma kuramı ve psikopatoloji. *Düşünen Adam*, *19*(1), 24-39.

**E-mail:** turkan.rehimli60@gmail.com
**Rəyçilər:** *psixol.elm.dok.*. **R.V. Cabbarov,**
*psixol.ü.fəls.dok., dos.* **M.H. Mustafayev**
**Redaksiyaya daxil olub:** 16.06.2023.